# GÖYGÖL MÜASİRLƏŞİR VƏ YENİLƏŞİR

**Respublikanın qabaqcıl, zəngin tarixə malik, əzəmətli Kəpəz dağının ətəyində, Göygöl kimi əfsanəvi göl əhatəsində, səfalı bir dilbər guşədə yerləşən və ən yüksək nöqtəsi dəniz səviyyəsindən 3724 metr hündürlükdə olan, qədim Göygöl rayonunda gedən davamlı inkişaf rayonun simasını əsaslı surətdə dəyişmişdir. Hər yerdə yenilik və gözəllik göz qamaşdırır. Yüksək zövqlə inşa edilmiş binalar, gözoxşayan, füsunkar təbiəti olan park və istirahət mərkəzləri sakinlərin ürəklərini riqqətə gətirir, qədim ornament və elementləri ilə işlənmiş sosial və ticarət obyektlər bir-birini tamamlayır və şəhərə xüsusi kompozisiya verir. Yüksək tərtibatla salınmış qazonların arasından boylanan tər çiçəklər qışın qızğın vaxtında belə sakinlərin ürəyini oxşayır, onlara ruhi qida verir.**

Bu gün Azərbaycan heç kimdən asılılığı olmayan, bütün məsələlərdə prinsipial mövqe nümayiş etdirən, öz müqəddəratını sərbəst həll etməyə qadir ölkədir və respublika Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlət siyasətinə alternativ yoxdur. Ötən dövr ərzində artıq öz nəticələrini verməkdə olan dərin iqtisadi islahatlar aparılmış, idarəetmə istiqamətində və digər sahələrdə, ixracı stimullaşdırmaq və idxaldan asılılığı azaltmaq üçün ölkə Prezidenti tərəfindən bir çox önəmli qərar və sərəncamlar imzalanmışdır. İqtisadi siyasətin prioritet istiqamətləri olan makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi və sənaye potensialının gücləndirilməsi kənd təsərrüfatında yeni layihələrin yüksək həllini tapması sahəsində yetərli tədbirlər həyata keçirilmişdir. Aparılan islahatlar dünyanın aparıcı iqtisadi mərkəzləri tərəfindən də yüksək qiymətləndirilmişdir. **Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Göygöl rayonuna daim diqqət və qayğı sayəsində, Göygöl Rayon İcra Hakimiyyətinin apardığı məqsədyönlü, səriştəli, ardıcıl və planlı tədbirlər nəticəsində, qədirbilən Göygöl sakinlərinin qurub-yaratmaq əzmi daha da güclənmişdir.**

Ölkə Prezidenti cənab İlham Əliyevin növbəti səfəri zamanı Göygöl rayonunda ən müasir standartlara cavab verən Dövlət bayrağı meydanında, Göygöl Olimpiya İdman Kompleksində, füsunkar gözəlliyə malik Heydər Əliyev parkında, möhtəşəm Heydər Əliyev Mərkəzində, Gənclər Mərkəzində, Kinoteatr və Uşaq Əyləncə Mərkəzində, əsaslı şəkildə yenidən qurulmuş Göygöl rayonunun Aşağı Zurnabad qəsəbəsi ərazisindəki 3 MVt-luq "Çiçəkli" Su Elektrik Stansiyasında, 4 saylı körpələr evi-uşaq bağçasında, əzəmətli Qələbə parkında olmuş öz xeyir-duasını, tapşırıq və tövsiyələrini vermişdir.

Bayraq meydanında 50 metr yüksəklikdə qaldırılmış əzəmətli Dövlət Bayrağı rayonun hər yerindən aydın görünür. Nəfis şəkildə işlənən Dövlət Gerbi kompleksə əlavə gözəllik qatır. Müasir səviyyədə inşa olunan bu kompleks indi rayonun ən gözəl yerlərindən birinə çevrilib. Ətraf şəhər və rayonlardan gələnlər ilin bütün fəsillərində burada istirahətdə olur, böyük təəssüratla ayrılırlar. Göygöl Olimpiya İdman Kompleksində müasir üzgüçülük hovuzu da quraşdırılıb. Kompleksdə güləş, universal idman zalı, şahmat və boks zalları, məşqçilər üçün otaqlar, konfrans zalı və digər zəruri otaqlar mövcuddur. Müxtəlif idman tədbirlərinin keçirilməsi üçün hər cür şəraitlə təchiz edilən universal idman zalı 780 tamaşaçı üçün nəzərdə tutulub. Kompleksin açıq futbol stadionu da var. Yaraşıqlı Heydər Əliyev Mərkəzində ümummilli liderin uşaqlıq və gənclik illərinə aid şəkillər, həmçinin, müxtəlif dövrlərdə çəkilən digər fotolar böyük maraqla qarşılanır. Heydər Əliyev Mərkəzində müxtəlif tədbirlərin keçirilməsi üçün akt və konfrans zalları yaradılıb. Gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün burada maksimum şərait yaradılmışdır. Mərkəzdə həmçinin elektron kitabxana, fotostudiya, şahmat zalı, muğam otağı və 3D kinoteatr da var. Rayon gənclərinin fəallığının artırılması, onların intellektual və yaradıcılıq potensialının üzə çıxarılması məqsədilə yaradılan mərkəz indi gənclərin ən çox üz tutduqları məkandır. Buradakı internet-kafe, diskoteka və digər əyləncə növləri və stolüstü oyunlar gənclərin asudə vaxtlarını səmərəli keçirmələrinə xidmət edir.

Əsaslı şəkildə yenidən qurulan 4 saylı körpələr evi-uşaq bağçasının ikimərtəbəli binasında 100 uşaq yerlik bu müəssisədə oyun, yemək və yataq otaqları, tədris otağı, musiqi zalı, mətbəx, həkim otağı və anbarlar yaradılıb. Otaqların hamısı zəruri inventar və avadanlıqla təchiz edilib. Binada uşaqların istirahəti və əyləncəsi üçün hərtərəfli şərait yaradılıb ki, bu da balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı üçün olduqca əhəmiyyətlidir. Bundan başqa, bu müəssisədəki şərait uşaqların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması məsələsində mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, burada yaradılan şərait uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin məntiqi nəticəsidir. Körpələr evi-uşaq bağçasının həyətində geniş abadlıq işləri aparılıb, balacaların əylənməsi üçün attraksionlar quraşdırılıb.

Əsaslı şəkildə qurulmuş möhtəşəm Qələbə parkında geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, dekorativ bəzək və gül kolları əkilib, oturacaqlar qoyulub. Parkın rayonun mərkəzində yerləşməsi onun özəlliyini daha da artırır. Parkda istirahətin yüksək səviyyədə təşkili üçün geniş imkan yaradılıb. Bu parkın yaradılması ilə rayon sakinlərinin sevə-sevə üz tutduqları istirahət məkanlarının sayı daha da artıb. Qonşu regionlardan gələn qonaqlar dincəlir və minnətdarlıqlarını bildirirlər. Ümumiyyətlə, parkların yaradılması zamanı balacalar da diqqətdən kənarda qalmır. Burada uşaqların asudə vaxtının səmərəli təşkili üçün əyləncə kompleksi yaradılıb, attraksionlar quraşdırılıb. Parkda Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılan abidə kompleksi də əsaslı şəkildə təmir olunub. Ümumi sahəsi iki hektar olan parkda fəvvarələr quraşdırılıb, istirahət guşələri yaradılıb. Parkda kafe də fəaliyyət göstərir. Bəli, yeni parkların, istirahət məkanlarının yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması həm də turizm bölgəsi kimi böyük şöhrət qazanmış Göygölü daha da müasirləşdirir. Qələbə parkının yenidən qurulması rayonda bu istiqamətdə reallaşdırılan layihələrin bir hissəsidir.

Hazırda da Göygöl şəhərində abadlıq və quruculuq işləri səngimir.

Aqrar sahənin inkişafına göstərilən dövlət dəstəyinin nəticəsi olaraq bu il bol məhsul tədarük edilmişdir. Heyvandarlıq sahəsində yüksək göstəricilər əldə olunmuşdur. Onu xüsusilə qeyd etmək lazımdır ki, kənd təsərrüfatının inkişafında suvarma sistemi əsas şərtlərdəndir. Məhz onların fədakar səyi nəticəsində yüksək məhsuldarlığa nail olunmuşdur. Belə ki, Göygöl Suvarma Sistemləri İdarəsi həmişə olduğu kimi, müvafiq dövr üçün nəzərdə tutulan, təsdiq edilmiş tədbirlər planına uyğun olaraq fəaliyyətlərini çox ciddi qurmuş, bu isə müsbət nəticəsini vermişdir. Ümumiyyətlə, Kənd Təsərrüfatı bitkilərinin suvarılmasının həyata keçirilməsi məqsədilə, kanalların su limitləri təsdiq edilmiş, dövlət təsərrüfatlarının, fermerlərin, digər sudan istifadə edən qurumların və şəxslərin suya tələbatını təmin etmək üçün lazım olan mövcud imkanlardan maksimum istifadə olunmuşdur. 2019-cu ilin 9 ayı ərzində Göygöl rayonu ərazisində 12626 ha suvarılan sahələrdə, kənd təsərrüfatı bitkilərinin Suvarma Sistemləri İdarəsi tərəfindən suvarılması təmin edilmişdir.

2019-cu ilin 9 ayı ərzində sel və daşqınlara qarşı mübarizə tədbirləri çərçivəsində çayların məcraları mexanizmlərlə təmizlənmiş, arxların və kanalların dəhnələri şitlər və digər vasitələrlə möhkəmləndirilmişdir. Belə ki, Xanlar, Qızılca, Nadel, Mollaosman, Bəhrəmbəy arxlarının dəhnələri möhkəmləndirilmişdir. Bundan başqa, suvarmada 269 ədəd subartezian quyusunun (4880 hektarı təmin etməklə) və 10 ədəd su nasos stansiyasının (1294 hektarı təmin etməklə) suyundan istifadə olunmuşdur. 2019-cu ilin 9 ayı ərzində idarənin balansında olan meliorasiya və irriqasiya sistemlərinin saz saxlanması və qəzasız fəaliyyəti tam təmin olunmuşdur. Lildəntəmizlənmə işləri üzrə mexanizmlərin köməyi ilə 506 min kubmetr təmizlənmə işləri aparılmışdır. Rayon ərazisində sel sularından mühafizə tədbirlərinin həyata keçirilməsi sahəsində də müvafiq işlər görülmüşdür. Belə ki, sel və daşqınların qarşısını almaq üçün Gəncə çay, Kürək çay, Qoşqar çayların məcraları təmizlənmiş, Nadel, Mollaosman, Qızılca və Bəhrəmbağ arxların və kanalların dəhnələri şitlər, beton bloklar və digər vasitələrlə möhkəmləndirilmişdir. Ümumiyyətlə, 217 min




kubmetr həcmində çay məcrasında təmizlənmə işləri görülmüşdür. 32 ədəd hidrotexniki qurğu, 23 ədəd hidropost cari təmir edilmiş, arxlarda və kanallarda 28 000 kv.m kol-koslardan təmizləmə işləri görülmüş, boru kəmərində 3,0 km uzunluğunda cari, beton kanallarda isə 8 km-dək təmir işləri aparılmışdır. Bundan başqa, Xanlar arxında və Xan arxında cari təmir işləri görülmüşdür.

Rayon əhalisinin əkin sahələrini suvarma suyu ilə təmin etmək, rayonda kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına zəmin yaratmaq məqsədilə 175 ədəd subartezian quyuları cari təmir edilmiş, 3 ədəd subartezian quyularında əsaslı təmir işləri aparılaraq bərpa olunmuşdur.

Göygöl rayonunda suvarılan sahələrdə 2019-cu ilin 9 ayı ərzində 4263 hektar taxıl bitkiləri, 1813 hektar yem bitkiləri və qarğıdalı, 1177 hektar bostan-tərəvəz bitkiləri, 1669 hektar çoxillik bitkilər, 353 hektar şəkər çuğunduru, 618 hektar günabaxan, 2733 hektar həyətyanı sahələrin suvarılması təmin olunmuşdur. Ümumiyyətlə, 2019-cu ilin 9 ayı ərzində 52890 min kubmetr ayrıcdan götürülən su istifadəçilərə verilmişdir.

Rayonda sahibkarlığın inkişafına yaradılmış münbit şəraitin nəticəsi olaraq hüquqi şəxslərin sayı artmışdır. Belə ki, aqrar sahənin inkişafı üçün Sahibkarlığa Kömək Milli Fondu tərəfindən sahibkara güzəştli kredit verilmişdir.

Tibbi xidmətin yaxşılaşdırması istiqamətində Göygöl Mərkəzi Rayon Xəstəxanası əsaslı və məntəqələr cari təmir edilmiş, əhalinin sağlamlığının qorunub saxlanılması üçün maksimum şərait yaradılmışdır.

Rayonda əhali arasında idmanın kütləviliyinin artırılması həmişə diqqətdə saxlanılır. Bunun bariz nümunəsidir ki, qonşu Gürcüstan Respublikasında Taekvondo idman növü üzrə komandalar böyük uğurlara imza atmışdır. Rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidov vətəndaşları təsdiq edilmiş cədvəl əsasında elan edilmiş günlərdə və saatlarda müntəzəm qəbul edir. Tam əminliklə demək olar ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına, eyni zamanda quruculuq-abadlıq işlərinin aparılmasına göstərdiyi diqqət və qayğının nəticəsi olaraq, Göygöl rayonu Azərbaycanın inkişaf və tərəqqisinə öz layiqli töhfəsini verəcəkdir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**









Respublika.- 2019.- 27 dekabr.-S.6.